**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**
**KOLLEGİYA QƏRARI**

**№ 6-N**

**Bakı şəhəri** **30 iyun 2025-ci il**

**"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında Təlimat"ın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndini rəhbər tutaraq Kollegiya

**QƏRARA ALIR:**

1. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında Təlimat" təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında Təlimatın təkmilləşdirilməsi" barədə 2012-ci il 19 mart tarixli 1-N nömrəli qərarının 1-ci hissəsi ləğv edilsin.
4. Bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (E.Nəsibov).
5. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün (L.Hüseynzadə).
6. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**nazir**
**III dərəcəli dövlət ədliyyə müşaviri** **Fərid Əhmədov**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının 30 iyun 2025-ci il tarixli 6-N №-li qərarı ilə təsdiq edilmişdir.

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında**

# TƏLİMAT

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat Azərbaycan Respublikasının Konstitusiyasına, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" (bundan sonra - Qanun) Azərbaycan Respublikasının Qanunlarına, habelə Azərbaycan Respublikasının qüvvədə olan digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanıb və Bələdiyyələrlə iş baş idarəsinin (bundan sonra - Baş idarə) və regional ədliyyə idarələrinin (bundan sonra - İdarə) bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı (bundan sonra - inzibati nəzarət) vəzifələrinin icrası qaydalarını müəyyən edir.

1.2. İnzibati nəzarət yalnız qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hallarda, bələdiyyələr tərəfindən qanunçuluğa əməl olunması baxımından həyata keçirilir.

1.3. İnzibati nəzarət, həmçinin qanunvericilik və icra hakimiyyətləri tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq bələdiyyələrə verilən əlavə səlahiyyətlərlə bağlı nəzarətin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə (bundan sonra - Nazirlik) həvalə edildiyi hallarda da həyata keçirilir.

1.4. İnzibati nəzarət bələdiyyələrin yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində müstəqil və sərbəst surətdə həll etmək hüququnu məhdudlaşdıra bilməz.

1.5. İnzibati nəzarət həyata keçirilərkən Baş idarə və İdarə tərəfindən bələdiyyələrin fəaliyyətinə edilən müdaxilə qanunda nəzərdə tutulan məqsədə mütənasib olmalıdır.

1.6. Bələdiyyələrin müvafiq komissiyaları və seçicilər qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati nəzarətin həyata keçirilməsinə cəlb edilə bilərlər. İnzibati nəzarətin həyata keçirilməsi zamanı zərurət yarandıqda Baş idarənin və ya İdarənin rəisi tərəfindən ekspertlər və mütəxəssislər araşdırmaya cəlb edilə bilərlər.

1.7. İnzibati nəzarət üzrə kargüzarlıq işi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq aparılır.

## 2. Bələdiyyə aktları üzrə inzibati nəzarətin həyata keçirilməsi

2.1. Bələdiyyələr Qanunun 6.1-ci maddəsində nəzərdə tutulmuş bələdiyyə aktlarını qəbul edildiyi tarixdən 3 iş günündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində (bundan sonra – informasiya sistemi) yerləşdirməlidirlər.

2.2. Daxil olan bələdiyyə aktı kargüzarlıq xidmətində müvafiq qaydada (1 nömrəli əlavə) qeydiyyata alınır və dərkənar qoyulması üçün Baş idarənin və ya İdarənin rəisinə təqdim edilir.

2.3. Bələdiyyə aktları Bakı şəhəri üzrə Baş idarəyə, regionlar üzrə isə İdarəyə təqdim edilir. Qanunun 6.2-ci maddəsinə əsasən inzibati nəzarəti həyata keçirən orqan ona göndərilmiş bələdiyyə aktının Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş normativ hüquqi aktlara uyğunluğunu müəyyənləşdirmək məqsədilə həmin akta informasiya sistemində yerləşdirildiyi tarixdən 15 iş günü, əlavə araşdırma tələb olunarsa, 30 iş günü müddətində baxılmasını təmin edir. İcraat zamanı əlavə məlumatların və ya sənədlərin əldə edilməsi tələb edildikdə, inzibati nəzarəti həyata keçirən orqanın həmin müddəti 30 iş günü uzatmaq hüququ vardır. Baş idarə və ya İdarə tərəfindən icraat aşağıdakı qaydada aparılır:

2.3.1. bələdiyyə aktının Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş normativ hüquqi aktlara zidd olduğu müəyyən edildikdə, Qanunun 8.4-cü maddəsinə əsasən həmin aktın dəyişdirilməsi və ya ləğv edilməsi barədə 5 iş günü müddətində müvafiq bələdiyyəyə təklif göndərilərək informasiya sistemində müvafiq aktın qarşısında qeyd edilir. Təklifdə ziddiyyətin məzmunu, onun aradan qaldırılmasına dair təkliflər, həmin təkliflərlə bağlı görülmüş tədbirlər barədə məlumat təqdim olunmasının (bələdiyyə aktının surəti əlavə edilməklə) zəruriliyi ilə bağlı məsələlər göstərilməlidir. Bələdiyyə tərəfindən həmin təklifə 5 iş günü müddətində bələdiyyə iclasında baxılaraq nəticəsi barədə inzibati nəzarəti həyata keçirən orqana məlumat verilir;

2.3.2. göstərilən ziddiyyət müəyyən olunmuş müddət ərzində aradan qaldırılmadıqda Qanunun 8.5-ci maddəsinə əsasən Baş idarə və ya İdarə tərəfindən müvafiq bələdiyyəyə müraciət edildiyi gündən 15 iş günü ərzində iddia ərizəsi hazırlanaraq aidiyyəti məhkəməyə göndərilir və bu barədə müvafiq bələdiyyə dərhal məlumatlandırılır;

2.3.3. bələdiyyə aktının Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş normativ hüquqi aktlara zidd olduğu müəyyən edilmədikdə və yaxud müəyyən edilmiş ziddiyyət Baş idarənin və ya İdarənin təklifi əsasında bələdiyyə tərəfindən aradan qaldırıldıqda, bu barədə arayış tərtib edilir və Baş idarə və ya İdarə rəhbərliyinin razılığı ilə sənədlər işə tikilir.

2.4. İnzibati nəzarətin həyata keçirilməsi zamanı bələdiyyənin Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə (bundan sonra - Dövlət Reyestri) daxil edilməmiş normativ xarakterli aktının tətbiqi halı aşkar olunduqda Baş idarə bu aktların Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunması barədə bələdiyyələrə müraciət edir və bu barədə Qanunvericilik baş idarəsinə məlumat verir. Bu müraciət 10 iş günü müddətində yerinə yetirilmədikdə Dövlət Reyestrinə daxil edilmədən tətbiq edilən normativ xarakterli aktların qüvvəsinin olmaması barədə məlumat Qanunvericilik baş idarəsi tərəfindən Dövlət Reyestrinin internet informasiya ehtiyatında dərc edilir. Baş idarə isə on iş günü müddətində Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunmamış yerli özünüidarə orqanlarının qərarlarının etibarsız sayılması barədə məhkəməyə müraciət edir.

2.5. İnzibati nəzarət icraatı zamanı mübahisə doğuran məsələlərin araşdırılması üçün əlavə sənədlərin və ya məlumatların təqdim olunması barədə Baş idarə və ya İdarə tərəfindən bələdiyyəyə şifahi və yaxud yazılı müraciət edilir. Qanunun 8.1-ci maddəsinə əsasən bələdiyyə həmin sənədləri və ya məlumatları sorğunu aldığı tarixdən 3 iş günü ərzində, həmin sənədlərin və ya məlumatların əldə edilməsi əlavə zaman tələb etdiyi

halda isə 10 iş günü ərzində inzibati nəzarəti həyata keçirən orqana informasiya sistemi vasitəsilə təqdim etməlidir.

2.6. Qanunun 8.1-1-ci maddəsinə əsasən inzibati nəzarət icraatının həyata keçirilməsi zamanı inzibati nəzarəti həyata keçirən orqan dövlət orqanlarına (qurumlarına) sorğular verə və məlumatlar ala bilər.

2.7. İnzibati nəzarəti həyata keçirən orqan Qanunun 8.2-ci maddəsinə əsasən inzibati nəzarət icraatı zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halların hərtərəfli, tam və obyektiv öyrənilməsi üçün yerində araşdırma aparmaq, bələdiyyələrin vəzifəli şəxslərindən, bələdiyyə qulluqçularından və digər aidiyyəti şəxslərdən bununla bağlı yazılı şəkildə məlumatlar, arayışlar almaq hüququna malikdir. Yerində araşdırma aparılması üçün bu barədə əsaslandırılmış arayış hazırlanır və Baş idarənin və ya İdarənin rəhbərliyinə məruzə edilir. Yerində araşdırma müvafiq qanunvericiliyə uyğun həyata keçirilir və onun aparılmasına bələdiyyələr tərəfindən maneə törədilməsi yolverilməzdir. Aparılmış araşdırmanın nəticələri barədə arayış tərtib edilir.

2.8. Bələdiyyələr qərarlarının qəbul edildiyi vaxtdan 3 iş günü ərzində onların surətini informasiya sistemində yerləşdirmədikdə, həmçinin araşdırmaların aparılmasına maneçilik törətdikdə Baş idarə və ya İdarə tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək müvafiq məhkəməyə göndərilir.

2.9. Bələdiyyənin və ya onun vəzifəli şəxslərinin fəaliyyətində cinayət əlamətləri aşkar edildikdə Qanunun 8.7-ci maddəsinə əsasən inzibati nəzarəti həyata keçirən orqan müvafiq tədbirlər görülməsi üçün səlahiyyətli dövlət orqanına müraciət edir. Göstərilən hallar İdarə tərəfindən müəyyən edildikdə toplanmış materiallar Baş idarəyə təqdim edilir.

## 3. Müraciətlər üzrə inzibati nəzarətin həyata keçirilməsi

3.1. Hüquqlarına və ya qanuni mənafelərinə bələdiyyə tərəfindən zərər vurulduğunu iddia edən fiziki və ya hüquqi şəxsin, yaxud dövlət orqanının (qurumunun) müraciəti üzrə inzibati nəzarət icraatına həmin müraciət ərizəçinin hüquqlarının və ya qanuni mənafelərinin pozulduğu, yaxud ona bu barədə məlum olduğu gündən 6 ay ərzində verildikdə başlanılır.

3.2. Bu Təlimatın 3.1-ci bəndində nəzərdə tutulmuş müraciət Baş idarəyə və ya İdarəyə daxil olduqda:

3.2.1. müraciət kargüzarlıq xidmətində qeydiyyata alınaraq dərkənar qoyulması üçün Baş idarənin və ya İdarənin rəisinə təqdim edilir;

3.2.2. müraciətdə irəli sürülən məsələ inzibati nəzarəti həyata keçirən orqanın səlahiyyətinə aid olduqda Baş idarə və ya İdarə tərəfindən müvafiq icraata başlanılır, əks təqdirdə müraciət 3 iş günündən gec olmayaraq aidiyyəti üzrə göndərilir və müraciət edənə bu barədə məlumat verilir. Müraciətdə göstərilən məsələ bir neçə müraciətə baxan subyektin səlahiyyətinə aid edildikdə müraciətin surəti 3 iş günündən gec olmayaraq həmin subyektlərə göndərilir.

3.3. Qanunun 7.2-ci maddəsinə əsasən Müraciətə 15 iş günü müddətində, əlavə araşdırmalar tələb olunursa, 30 iş günü müddətində baxılır. İnzibati nəzarət icraatı üzrə

əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün bu müddətdən daha artıq vaxt tələb olunduğu hallarda inzibati nəzarət icraatının müddəti daha 30 iş günü uzadılır. İnzibati nəzarət icraatının ümumi müddəti 60 iş günündən çox ola bilməz. Müddətin uzadılması barədə ərizəçiyə Baş idarə və ya İdarə tərəfindən 3 iş günü müddətində yazılı məlumat verilir. Müddətin uzadılmasına səbəb olan hallar inzibati nəzarəti həyata keçirən orqan tərəfindən əsaslandırılmalıdır.

3.4. İnzibati nəzarət icraatı zamanı müraciətin mahiyyəti diqqətlə öyrənilməli, araşdırmalar aparılmalı və əsas olduqda bu Təlimatın 2.4-2.8-ci bəndlərində nəzərdə tutulmuş tədbirlər görülməlidir.

3.5. İnzibati nəzarət icraatı nəticəsində bələdiyyənin fəaliyyətinin və ya bələdiyyə aktının qanunazidd olduğu müəyyən edildikdə Qanunun 8.3-cü və 8.4-cü maddələrinə əsasən həmin fəaliyyətin dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması, yaxud həmin aktın dəyişdirilməsi və ya ləğv edilməsi barədə 5 iş günü müddətində müvafiq bələdiyyəyə müraciət edilir. Bələdiyyə tərəfindən həmin müraciətə 5 iş günü müddətində bələdiyyə iclasında baxılaraq nəticəsi barədə inzibati nəzarəti həyata keçirən orqana məlumat verilir.

3.6. Müraciət müəyyən olunmuş müddət ərzində bələdiyyə tərəfindən yerinə yetirilmədikdə Qanunun 8.5-ci maddəsinə əsasən Baş idarə və ya İdarə tərəfindən müvafiq bələdiyyəyə müraciət edildiyi gündən 15 iş günü ərzində iddia ərizəsi hazırlanaraq aidiyyəti məhkəməyə göndərilir və bu barədə müvafiq bələdiyyə dərhal məlumatlandırılır.

3.7. Hər hansı bələdiyyə aktı və ya bələdiyyənin fəaliyyəti dövlət mənafelərinə və ya ictimai mənafelərə ziyan vura bilərsə, Qanunun 8.6-cı maddəsinə əsasən həmin aktın ləğv edilməsi (dəyişdirilməsi) və ya həmin fəaliyyətə xitam verilməsi məqsədi ilə Baş idarə və ya İdarə tərəfindən müvafiq bələdiyyəyə dərhal təklif göndərilir. Baş idarənin və ya İdarənin təklifi 3 iş günü müddətində bələdiyyə tərəfindən yerinə yetirilmədikdə dərhal iddia ərizəsi hazırlanaraq aidiyyəti məhkəməyə göndərilir.

3.8. Araşdırma nəticəsində bələdiyyənin və ya onun vəzifəli şəxslərinin fəaliyyətində cinayət əlamətləri aşkar edildikdə bu Təlimatın 2.9-cu bəndində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.

3.9. İnzibati nəzarət icraatının nəticəsi barədə arayış tərtib edilir, Baş idarə və ya İdarə rəhbərliyinin (Nazirliyin rəhbərliyi tərəfindən nəzarətə götürülmüş müraciətlər üzrə isə Nazirliyin rəhbərliyinin) razılığı ilə müraciət edənə məlumat verilir və sənədlər işə tikilir.

## 4. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı digər müddəalar

4.1. İnzibati nəzarəti həyata keçirən orqan bələdiyyələrin fəaliyyətində qanunçuluq prinsipinə riayət olunmasının təmin edilməsi ilə bağlı təhlil və ümumiləşdirmələr aparır və onları öz təklif və tövsiyələri ilə birlikdə müvafiq bələdiyyələrə təqdim edir. Qanunun 10.2-ci maddəsinə əsasən təklif və tövsiyələr alındığı gündən 5 iş günü ərzində bələdiyyələrin iclaslarında müzakirə olunur və müvafiq qərar qəbul olunur. Baş idarənin

və ya İdarənin nümayəndələri bu təklif və tövsiyələrin müzakirəsi zamanı müvafiq bələdiyyə iclasında iştirak edə bilərlər.

4.2. Baş idarə hər ilin yekunu üzrə inzibati nəzarətlə bağlı fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə göndərilməsi üçün illik məruzə hazırlayaraq Nazirliyin rəhbərliyinə təqdim edir.

4.3. İllik məruzənin hazırlanması ilə əlaqədar İdarələr inzibati nəzarət üzrə hesabatlarını Baş idarəyə təqdim edirlər. Habelə İdarələr inzibati nəzarətin həyata keçirilməsi və bələdiyyələrlə bağlı digər fəaliyyətləri barədə Baş idarəyə yarımillik və illik hesabatlarını təqdim edirlər.

“Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında Təlimat”a
**1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə mütləq təqdim olunan bələdiyyə aktlarının qeydiyyatı kitabı**

| Bələdiyyə aktının daxilolma tarixi və nömrəsi | Bələdiyyə aktını göndərən | Bələdiyyə aktının tarixi və nömrəsi | Bələdiyyə aktının qısa məzmunu | Kim baxmışdır və dərkənar | İcraçı | Alınma barədə imza və tarix | Bələdiyyə aktı üzrə icraatın nəticəsi | Bələdiyyə aktının kargüzarlıq xidmətinə qaytarılması tarixi | Bələdiyyə aktının saxlandığı işin nömrəsi, vərəqlərin sayı | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | |